**Azərbaycan Respublikasının AUDİTORLAR PALATASI**

**CHAMBER OF AUDITORS of the Republic of Azerbaijan**

AZ1072, Bakı, S.Y.Bakuvi küç. 35, Tel./Faks: 498-28-55, E-mail: audit-azerbaijan@audit.gov.az AZ1072, 35, S.Y.Bakuvi Str., Ph./Fax: 498-28-55

№ 10-1/2-523/2026 «26» avqust 2026 il/year

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti,**
**Heydər Əliyev Fondunun prezidenti**
**xanım Mehriban Əliyevaya**

**Hörmətli Mehriban xanım,**

Sizi doğum gününüz münasibətilə Azərbaycan Respublikasının Auditorlar Palatasının kollektivi və ölkəmizin auditor ictimaiyyəti adından səmimi-qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti, firavanlıq və ölkəmizin tərəqqisi naminə həyata keçirdiyiniz çoxşaxəli və məsuliyyətli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

Sizin Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, ölkəmizin sosial-iqtisadi və mədəni inkişafının təmin olunması və beynəlxalq aləmdə nüfuzunun daha da yüksəldilməsi istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyətiniz, Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri cənab İlham Əliyevin ən yaxın silahdaşı kimi dövlətçilik amallarının həyata keçirilməsinə verdiyiniz mühüm töhfələr xüsusi ehtiram və minnətdarlıq doğurur. Dövlətimizin inkişaf strategiyasının mühüm tərkib hissəsi olan humanizm, sosial ədalət, milli-mənəvi dəyərlərə bağlılıq və insan amilinə yüksək diqqət prinsiplərinin ictimai həyatımızda daha da möhkəmlənməsində Sizin xidmətləriniz əvəzsizdir.

Rəhbərlik etdiyiniz Heydər Əliyev Fondunun fəaliyyəti bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Fondun həyata keçirdiyi genişmiqyaslı layihələr Azərbaycan cəmiyyətinin müxtəlif təbəqələrinin rifahına, təhsil və səhiyyənin inkişafına, mədəni irsimizin qorunmasına, milli-mənəvi dəyərlərimizin dünyada təbliğinə və ölkəmizin humanitar siyasətinin beynəlxalq miqyasda layiqincə təqdim olunmasına mühüm töhfələr verir.

Sizin təşəbbüsünüz və şəxsi diqqətiniz sayəsində həyata keçirilən çoxsaylı sosial və humanitar layihələr dövlətimizin və xalqımızın gələcəyə inamını daha da gücləndirir. Xüsusilə təhsil, səhiyyə, mədəniyyət, uşaq və ailələrin müdafiəsi, xüsusi qayğıya ehtiyacı olan insanların sosial rifahının yaxşılaşdırılması istiqamətində gördüyünüz işlər yüksək insani dəyərlərin və dövlətçilik məsuliyyətinin parlaq nümunəsidir.

Azərbaycanın zəngin tarixi-mədəni irsinin qorunması və dünyada tanıdılması istiqamətində fəaliyyətiniz də xüsusi qeyd olunmağa layiqdir. Ölkəmizin mədəniyyətinin, incəsənətinin və milli-mənəvi irsinin beynəlxalq səviyyədə təbliği Azərbaycanın dünyaya

daha yaxından tanıdılmasına, ölkəmizin müsbət imicinin möhkəmləndirilməsinə və xalqlar arasında humanitar əlaqələrin genişlənməsinə mühüm töhfə verir.

Sizin fəaliyyətinizdə dövlətçilik və vətəndaşlıq məsuliyyətinin humanizm və xeyirxahlıq prinsipləri ilə üzvi vəhdət təşkil etməsi cəmiyyətimiz üçün mühüm mənəvi örnəkdir. Hər bir təşəbbüsünüzdə insanlara qayğı, milli dəyərlərə sədaqət və Azərbaycanın gələcəyinə inam kimi ali məramların öz əksini tapması böyük rəğbət və ehtiramla qarşılanır.

Bu günlərdə 30 illik yubileylərini qeyd edəcək Azərbaycan auditorları da ölkəmizin inkişafına, dövlət idarəçiliyində şəffaflığın və hesabatlılığın möhkəmləndirilməsinə, peşəkar və məsuliyyətli cəmiyyətin formalaşmasına öz töhfəsini verməyə çalışır. Bu baxımdan, ölkəmizdə hüququn aliliyinin, şəffaflığın, məsuliyyətli idarəçilik və ictimai etimad prinsiplərinin daha da möhkəmləndirilməsi istiqamətində həyata keçirilən ardıcıl dövlət siyasətini yüksək qiymətləndiririk.

Əlamətdar gününüzdə Sizə bir daha ən xoş və səmimi arzularımızı çatdırırıq. İnanırıq ki, Sizin zəngin dövlətçilik fəaliyyətiniz, humanizm və xeyirxahlıq nümunəsi olan təşəbbüsləriniz bundan sonra da Azərbaycanın davamlı inkişafına, xalqımızın rifahına və ölkəmizin beynəlxalq nüfuzunun daha da yüksəlməsinə xidmət edəcəkdir.

Uca Tanrıdan Sizə möhkəm cansağlığı, uzun və mənalı ömür, ailənizə daim xoşbəxtlik və firavanlıq, şərəfli fəaliyyətinizdə tükənməz enerji və böyük uğurlar diləyirik.

**Doğum gününüz mübarək olsun, hörmətli Mehriban xanım!**

**Dərin hörmət və ehtiramla,**

**Azərbaycan Respublikası**
**Auditorlar Palatasının sədri** **Vahid Novruzov**

Azərbaycan Respublikasının Auditorlar Palatası
Chamber of Auditors of Azerbaijan Republic